# YUBİLEY

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV- 80



*Respublikamızda yalnız və yalnız quruculuq, inkişaf, əminamanlıq, maddi rifahda yüksəliş, ərazi bütövlüyü, azərbaycan xalqının maddi və mənəvi dəyərlərinin qorunub saxlanılması, sivil-beynəlxalq hüquqi normaların bərqərar olması, konstitusiya hüquqlarının qorunması, insani-etik*

*qanunların aliliyinin təminatçısı, vətənin dəyərli oğlu, ağsaqqal, zəngin təcrübəyə və dərin ictimai-siyasi biliyə malik, polad iradəli, xalqın xeyirxahı, insanpərvər, humanist, xalqlar arasında sülhsevər münasibətlərin carçısı, öz sülhsevər siyasi dəsti-xətti ilə dünya siyasətində birmənalı qəbul olunmuş və superdövlətlər tərəfindən yetərincə müsbət dəyərləndirilmiş, müstəqil Azərbaycan Respublikasının gələcək inkişafının əsaslarını yaradan, öz gərgin əməyi, biliyi və əməlləri ilə respublikamızı uğurlu gələcəyə aparan bütün dünya azərbaycanlarının lideri Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əlirza oğlu Əliyevi 80 illik yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı və müvəffəqiyyətlər arzulayırıq.*

*Ölkəmizdə elm, təhsil, mədəniyyət, incəsənət və digər həyatıvacib sahələrin müasir zamanın tələblərinə uyğun səviyyələrə qaldırılmasında, respublika iqtisadiyyatının bütün sahələrində, o cümlədən energetika sənayesinin inkişafında misilsiz xidmətləri olan möhtərəm prezidentimiz Heydər Əliyevə gələcək quruculuq işlərində yeni-yeni uğurlar arzulayırıq.*

*Qədirbilən xalqımız ölkə prezidenti Heydər Əliyevin Respublikanın çiçəklənməsi naminə sərf etdiyi gərgin əməyini yüksək qiymətləndirir və onu yekdilliklə dəstəkləyirlər.*

Redaksiya heyəti